İPƏK YOLU, No.3, 2025, səh.53-62
https://doi.org/10.30546/SI.2025.3.47.311

# GƏMİQAYIRMANIN TƏŞKİLİ VƏ ONUN İNKİŞAFININ TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

**Turqay Baytalov**

Neft Qaz Elmi-Tədqiqat Layihə İnstitutu, SOCAR, Bakı, Azərbaycan
e-mail: tbaitalov@gmail.com

**Xülasə.** Gəmiqayırmanın təşkili və onun inkişafının təmin olunmasının araşdırılması xüsusi aktuallıq kəsb etdiyinə görə onun nəzəri əsaslarının tədqiqinə böyük zərurət yaranmışdır. Bu baxımdan gəmiqayırma sənayesinin inkişafının təmin edilməsinin nəzəri əsası araşdırılaraq bu sahədə qiymətqoyma problemlərinin yaranması səbəbləri və həlli istiqamətləri müəyyənləşdirilmişdir. Məqalədə gəmiqayırma sənayesində korporativ infrastrukturu təşkil etmək üçün bir sıra vacib məsələlərin həll olunmasına ehtiyacın olduğu əsaslandırılmışdır.

**Açar sözlər:** Gəmiqayırma, sənaye, müəssisə, subyekt, korporativ, sahibkarlıq.

**ORGANIZATION OF SHIPBUILDING AND DIRECTIONS FOR ENSURING ITS DEVELOPMENT**

**Turgay Baytalov**
*Research and Design Institute of Oil-and-Gas, SOCAR, Baku, Azerbaijan*

**Abstract.** Due to the fact that the study of the organization of shipbuilding and ensuring its development is of particular relevance, there was a great need to study its theoretical foundations. In this regard, the theoretical basis for ensuring the development of the shipbuilding industry has been investigated and the causes and directions for solving costing problems in this area have been determined. In order to organize the corporate infrastructure in the shipbuilding industry, the article substantiates the need to resolve a number of important issues.
**Keywords:** Shipbuilding, industry, enterprise, organization, corporate, entrepreneurship.

**ОРГАНИЗАЦИЯ СУДОСТРОЕНИЯ И НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ЕГО РАЗВИТИЯ**

**Тургай Байталов**
*Научно-Исследовательский Проектный Институт Нефти и Газа, SOCAR, Баку, Азербайджан*

**Резюме.** В связи с тем, что исследование организации судостроения и обеспечения его развития приобрело особую актуальность, возникла большая необходимость в исследовании его теоретических основ. В связи с этим была исследована теоретическая основа обеспечения развития судостроительной промышленности и определены причины возникновения и направления решения проблем ценообразования в данной сфере. Для организации корпоративной инфраструктуры в судостроительной отрасли в статье обосновывается необходимость решения ряда важных вопросов.
**Ключевые слова:** Судостроение, промышленность, предприятие, субъект, корпоративное, предпринимательство.

## 1. Giriş

Müstəqilliyinin ilk illərində ölkəmizdə xeyli çətinliklər yaranmışdır. Yaranmış həmin çətinliklər Ümummilli liderimiz H.Ə. Əliyevin hakimiyyətə qayıdışından sonra onun həyata keçirdiyi uğurlu siyasəti nəticəsində aradan qaldırıldı. H.Ə. Əliyevin uzaqgörən siyasəti nəticəsində Əsrin Kontraktı imzalandıqdan sonra dünyanın nəhəng neft şirkətləri sağlam rəqabət mühiti formalaşmış ölkəmizin neft-qaz sənayesinə investisiya qoyululuşunda çox maraqlı idilər. Bu cür nəhəng layihələrin reallaşdırıldığı iqtisadi münasibətlər şəraitində

ölkəmizdə xarici gəmiqayırma müəssisələri ilə eyni səviyyədə olan milli gəmiqayırma müəssisəsinin təşkilinə və onun inkişafının təmin olunması istiqamətlərinin müəyyənləşdirilməsinə böyük zərurət yaranmışdır.

## 2. Gəmiqayırma sənayesinin inkişafının təmin edilməsinin nəzəri əsası

Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra əvvəlki inzibati amirlik sistemindən fərqli olaraq milli iqtisadiyyatımız yeni bazar prinsiplərinə uyğun olaraq formalaşdı. Belə şəraitdə dövlət sənaye siyasəti alətlərinin müxtəlifliyi ilə yeni idarəetmə prinsiplərinə keçid proseslərinin təkamülünü təmin etdi. Bu da dövlətin iqtisadi artımın stimullaşdırılmasında fəal rolunu nəzərdə tutur və dövlət siyasəti iqtisadiyyatın təkamül transformasiyasının tənzimləyicisi rolunu əks etdirdi [5; 6].

Müasir iqtisadi münasibətlər şəraitində Azərbaycan Respublikasında gəmiqayırmanın təşkili məqsədilə iqtisadi cəhətdən əlverişli şərait yaratmağa yönəldilmiş dövlət dəstəyinə ehtiyac vardır. Bunun üçün xarici və milli investisiyalar cəlb edilməklə ölkəmizdə milli gəmiqayırma sənayesinin təşkilinə dövlət dəstəyi məqsədilə bu sənaye sahəsinin yüksək istehsal, elmi-texniki və ixrac potensialının inkişafına və səmərəli istifadəsinə yönəldilmiş qanunvericilik bazası təkmilləşdirilməlidir.

A.V. Novikov hesab edir ki, “gəmiqayırma müəssisələrinin təşkili və idarə edilməsi həm fərdi texnoloji əməliyyatları, həm də biznes proseslərini və bütövlükdə müəssisəni əhatə edən çox səviyyəli bir prosesdir. Gəmiqayırmanın sürətli inkişafını təmin etmək üçün bir sıra problemlərin həlli lazımdır, bunlardan əsasları aşağıdakılardır:

1. Struktur ətalət probleminin aradan qaldırılması (bu, blok-modul strukturunun xeyrinə müəssisənin ənənəvi istifadə olunan emalatxana strukturundan imtina səviyyəsində dəyişikliklər tələb edir);

2. Sənaye məhsulları və təmir işləri üçün baha başa gələn qiymət üsulundan tamamilə imtina (bu üsulun əsasını təşkil edən planlı rentabellik prinsipi, iş proseslərində və fərdi texnoloji əməliyyatlarda itkilərin aradan qaldırılması ilə əlaqəli “arıq istehsal” mədəniyyətini tətbiq etmək cəhdlərinə baxmayaraq, müəssisənin xərclərinin, habelə istehsal dövrünün müddətinin qorunub saxlanılmasını/artırılmasını təşviq edir);

3. Sənaye texnoloji biliklərinin ətalətinin aradan qaldırılması (sənayedə çox sayda yenilik tətbiq etmək üçün “texnoloji dogmatizmi”, o cümlədən sənaye istehsalının digər sahələrindən yeni texnoloji biliklərin assimilyasiyasına əsaslanaraq aradan qaldırmaq lazımdır)” [8, s.452].

## 3. Gəmiqayırmada qiymətqoyma problemlərinin yaranması səbəbləri və həlli istiqamətləri

Yuxarıda göstərilən müddəalar istehsal sistemlərinin rəqabətədavamlılığının təmin edilməsinin bütün aspektlərinə təsir göstərir. Müasir bazar münasibətləri şəraitinin

optimallaşdırılması və xərclərin strukturunun obyektiv şəkildə azaldılması yolu ilə biznes subyektlərinin bazar əlaqələrinin tam səviyyəsinə çatması vacibdir. Hazırda yeni texnologiyaların tətbiq olunması, köhnəlmiş avadanlıqların modernləşdirilməsi və innovasiyaların tətbiqi şəraitində köhnəlmiş standartların istifadəsi əmək intensivliyinin hesablanmasında və nəticədə gəmi tikintisinin qiymətinin təhrif edilməsinə səbəb olur. Gəmiqayırmanın təşkili mərhələsində müəyyənləşdirilmiş əsas problemlər, onların yaranması səbəbləri və həll istiqamətləri Cədvəl 1-də əks olunmuşdur.

**Cədvəl 1.** Gəmiqayırmada qiymətqoyma problemləri, onların yaranması səbəbləri və həlli istiqamətləri

| Problem | Səbəb | Həlli istiqamətləri | Qeyd |
|---|---|---|---|
| Gəmiqayırmada qiymət sisteminin sənayedəki müasir texnoloji dəyişikliklərlə uyğunsuzluğu | Müvafiq funksiyalar buraxıldıqda texniki və texnoloji aspektlərdə sənayenin yenidən qurulması | Qiymət sisteminin dəyişdirilməsi | Müəssisələrə dövlət tərəfindən tənzimləmə və dəstək tələb olunur |
| Baş və ilk seriyalı gəmiləri üçün qeyri-kafi qiymət üsulları | Bütün gəmilərin tikintisi üçün eyni üsullardan istifadə olunur, baş və ilk seriyalı gəmiləri isə başqa üsullar tələb edir | Baş və ilk seriyalı gəmilər üçün ayrıca bir üsuldan istifadə (məsələn, layihə-smeta üsulu) | Qanunvericilikdə dəqiqləşdirmə tələb olunur |
| Mövcud qiymət üsulları uzun tikinti dövründə texnologiyadakı dəyişiklikləri nəzərə almır | Köhnə standartlar və ya analoq üsulu istifadə olunur | Qiymətin əmələgəlməsinin xərc üsulundan istifadə etməklə | Müəssisədə dövlət tənzimlənməsi və nəzarət sisteminin tətbiqi tələb olunur |
| Mövcud qiymətqoyma üsulları uzunmüddətli tikinti dövründə əməkdaşlıq münasibətlərindəki dəyişiklikləri nəzərə almır | Köhnə standartlar və ya analoq üsulu istifadə olunur | Qiymətin əmələgəlməsinin xərc üsulundan istifadə etməklə | Müəssisədə dövlət tənzimlənməsi və nəzarət sisteminin tətbiqi tələb olunur |

**Mənbə:** [7, s.225]

Müasir iqtisadi münasibətlərin formalaşdığı şəraitdə gəmiqayırma sənayesində qlobal rəqabətin yüksəldiyi halda, o cümlədən dünyada baş verən prosslərlə əlaqədar ölkəmizdə gəmiqayırma sənayesinin səmərəliliyini təmin etməyə və strateji əhəmiyyətli sənaye sahələrindən biri kimi inkişaf məqsədlərinə çatmağa imkan verməyən bir sıra problemlərlə üzləşir. Gəmiqayırmanın əsas problemlərindən biri bu sahə üçün komponentlərin və aqreqatların xarici tədarükçülərindən asılılığı hesab edilir. Gəmiqayırmanın təşkilinə və onun təkmilləşdirilməsinə dair dövlət dəstəyinin əsaslarından biri gəmilərin tikintisinə görə qiymət mexanizmi formalaşdırılmalıdır. Bunun üçün qanunvericilik və normativ-metodiki bazanın işlənib hazırlanması zəruridir. Gəmiqayırma sənayesində istehsalın aşağı texnoloji hazırlığı aradan qaldırılmalı, ixtisaslı kadr təchizatını yaxşılaşdırmaqla əmək məhsuldarlığı yüksəldilməli və əsas istehsal fondlarıyla təchizatı modernləşdirilməli, eyni zamanda yaxşı dizayna malik olan müasir məhsul nümunələrinin yaradılması üçün indiqativ planlaşdırma həyata keçirilməlidir.

## 4. Gəmiqayırmanın təşkilində indikativ planlaşdırmanın həyata keçirilməsi

Müasir iqtisadi münasibətlərin formalaşdığı şəraitdə biznes subyektlərinin və onların istehsal etdikləri məhsulların qiymətə görə rəqabətədavamlılığı əmək xərclərinin həddindən artıq azaldılması hesabına formalaşmır. Bütün bunlar gəmiqayırmanın təşkil olunaraq inkişaf etməsinin indikativ planlaşdırılması sisteminin və sənayenin institusional (təşkilati-iqtisadi) inkişafı üçün alqoritmlərin, o cümlədən müvafiq iqtisadi və institusional dəyişikliklərin mexanizmlərinin hazırlanmasını əhatə edir (Şəkil 1).




**Şəkil 1.** Gəmiqayırmanın təşkilində indikativ planlaşdırmanın həyata keçirilməsi

**Mənbə:** [9]

Ölkəmizdə gəmiqayırmanın təşkilində indikativ planlaşdırma mexanizmi vasitəsiylə planlaşdırılan üfüqlərin seçimi də istehsal dövrünün xüsusiyyətlərinə uyğun olaraq həyata keçirilməlidir. Müxtəlif dövrlərə görə (uzun, orta və qısamüddətli) planların müvəqqəti təfərrüatları gəmiqayırma nomenklaturasının xüsusiyyətlərindən asılıdır. Bu xüsusiyyətlərin asılılığını nəzərə alaraq təbii ki, açıq-aydın mümkün göstəricilər toplusunun inkişafının uzunmüddətli (15-20 illik) strateji dövrə qədər uzadılması məqsədəuyğundur. Bununla yanaşı qısamüddətli üfüq, gəmiqayırmanın təşkili və təkmilləşdirilməsi məqsədilə müvafiq

qanunvericilik təşəbbüslərinin reallaşdırılmasında yaranan gecikmə halları nəzərə alınmaqla bir ildən beş ilədək dəyişilməsi mümkündür.

Azərbaycan Respublikasının gəmiqayırması hazırda yüksək elmi və texniki potensiala malik ən böyük maşınqayırma sənayesi sahəsidir. Ölkəmizin iqtisadiyyatının çoxsaylı əlaqəli sahələrinin fəaliyyətinin nəticələrini öz məhsullarına kombinləşdirən gəmiqayırma sənayesinin inkişaf səviyyəsi istənilən ölkə üçün onun ETT-nin və sənaye potensialının göstəricisi hesab olunur.

14.09.2017-ci ildə Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimində Dövlət başçısı İ.H. Əliyev nitq söyləyərkən ölkəmizdə gəmiqayırmanın təşkilinin önəmliliyini vurğulayaraq qeyd etmişdir ki, "Bunlardan əlavə, dünyanın ən böyük Səngəçal neft-qaz terminalı tikilmişdir. Gəmiqayırma zavodu tikilmişdir, hansı ki, indi Azərbaycanda istənilən növ gəminin istehsalı mümkündür. Dünyanın ən böyük qazma qurğularından biri - Heydər Əliyevin adını daşıyan qazma qurğusu istifadəyə verilmişdir. Azərbaycanda platformalar tikilir. Azərbaycan mütəxəssisləri xarici neft-qaz layihələrinin icrasında əksəriyyət təşkil edirlər. Yəni, budur "Əsrin kontraktı"nın Azərbaycana verdiyi faydalar" [3].

Nisbətən əmək tutumlu olan gəmiqayırma sənayesi ölkəmizdə əlaqəli sahələri nəzərə alaraq xeyli iş yeri təmin edərək əhalinin məşğulluğuna müəyyən töhfə verir. Gəmiqayırma sənayenin bir sıra sahələrinin (metallurgiya, maşınqayırma, elektronika və s.), elmi tədqiqat institutlarının və layihə-konstruktor bürosunun inkişafı və işi ilə sıx əlaqəlidir. Bir gəmiqayırma müəssisəsinin işi digər sənaye sahələrində minimum beş nəfər işçinin işlə yüklənməsini zəruri edir. Bu baxımdan da gəmiqayırma sənayesində vəziyyət həmişə ölkənin sosial-iqtisadi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir etmək imkanına malikdir.

## 5. Gəmiqayırma sənayesində fəaliyyət göstərən subyektlərin əsas qrupları

Gəmiqayırma ənənəvi olaraq idxalyönümlü sənaye sahəsi hesab olunur. Bu ona görə belədir ki, bir sıra ölkələr zəif inkişaf etdiklərinə görə milli gəmiçilik və müdafiə maraqlarının mövcudluğu şəraitində öz gəmiqayırma sənayesini təşkil etmək imkanına malik olmurlar. Ən əsası isə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin, Dövlət Sərhəd və Təhlükəsizlik Xidmətlərinin, Dövlət Gömrük Komitəsinin, Fövqəladə Hallar Nazirliyinin dəniz hissələri, nəqliyyat dəniz və çay donanmaları, balıq ovu donanması, yanacaq kompleksi müəssisələri, dəniz şelfində karbohidrogen və digər xammal hasilatı və Azərbaycan Respublikasının dəniz fəaliyyətinin digər sahələrini təmin etmək üçün gəmiqayırmanın əhəmiyyəti böyükdür. Gəmiqayırma gəmilərin, tankerlərin və üzən konstruksiyaların, cihazların tədqiqi, dizaynı, tikintisi, texniki dəstəyi, təmiri və istifadəsini təmin edən ölkənin müdafiə-sənaye kompleksinin bir hissəsini təşkil edir. Bu göstərilənlərin hamısı, əsasən,

dövlətin strateji, siyasi, nəqliyyat, ərzaq və enerji təhlükəsizliyini müəyyənləşdirmək imkanına malikdir.

İqtisadiyyatın sənaye miqyasında korporativ infrastruktur təşkilati-iqtisadi kateqoriya hesab olunur. Sənayedə korporativ infrastrukturun daxilində dialektik münasibətdə sənaye subyekti kimi sahibkarlıq qurumları, sənaye institutları kimi maliyyə (və mülkiyyət) münasibətləri, sənayedə insan kapitalının mənbəyi kimi müəssisənin işçi heyəti, habelə maddi-texniki baza kimi, əsas istehsalat kimi sənayenin sütununu formalaşdırır. Gəmiqayırma sənayesində fəaliyyət göstərən subyektlər geniş şəkildə aşağıdakı əsas qruplardan ibarətdir:

– Gəmiləri, qayıqları, üzən və stasionar dəniz qurğularını birbaşa istehsal edən gəmiqayırma müəssisələri (tərsanələr);

– Cari və əsaslı təmiri, modernləşdirməni və təkrar emalı reallaşdıran gəmi təmiri müəssisələri;

– Layihəni reallaşdıran və yuxarıda göstərilən məhsulların istehsal olunması ilə bağlı elmi-texniki məsələlərin kompleks həllini təmin edən gəmiqayırma profilinin layihə müəssisələri və elmi mərkəzləri;

– Gəmi avadanlıqlarının (alətlərinin), silah sistemlərinin və komplekslərinin işlənib hazırlanması və istehsalında tarixən ixtisaslaşmış maşınqayırma (cihazqayırma) subyektləri.

Gəmiqayırma sənayesinin hazır məhsulları dedikdə demək olar ki, bütün növ və siniflər üzrə bərələr, qayıqlar, kələklər, kolazlar, barjalar, kirjimlər, gəmilər, su gəmiləri və okean kəşfiyyatı avadanlıqları aid edilir. Bakı Gəmiqayırma Zavodu bir sıra mühüm layihələri reallaşdıraraq üzən Doku, yedək gəmisini, sərnişin gəmilərini, sualtı tikinti gəmisini, yarı sualtı qurğu üçün pontonları, neft tankerlərini və avtomobil dəmiryolu sərnişin bərələrini istehsal etmişdir. Bu deyilənləri əsas götürməklə gəmiqayırma sənayesinə aşağıda göstərdiyimiz tərifi vermək mümkündür: bu sahə müxtəlif gəmiqayırma məhsullarının və onun tərkib hissələrinin istehsal olunması məqsədilə sənaye elmi və texniki fəaliyyətini reallaşdıran maşınqayırma (cihazqayırma) üzrə tarixən ixtisaslaşdırılmış tamamlama (finiş), layihə və elmi müəssisələrin məcmusundan ibarətdir.

## 6. Gəmiqayırma sənayesində korporativ infrastrukturun təşkili

Gəmiqayırma sənayesində korporativ infrastruktur, sənaye məhsullarının birbaşa istehsal edən sahibkarlara əlavə olaraq texnoloji zəncirlərin iştirakçılarını, əməliyyat müəssisələrini (şippinq qurumlarını, fraxtaçıları), təmir-texniki bazaya daxil olan təşkilatları, eyni zamanda sahil infrastrukturunun subyektlərini əhatə edən açıq bir sistemdir. Apardığımız araşdırmalara əsasən, belə qənaətə gəlmək olar ki, gəmiqayırma sənayesinin bir hissəsi olaraq, ona daxil olan subyektlər arasında müxtəlif növ münasibətlərə bunlar aiddir: texnoloji, marketinq, maliyyə-kredit, əmlak, xidmət və s.

Gəmiqayırma sənayesində korporativ infrastruktur daxilində məhz mülkiyyət münasibətləri üstünlüyə malikdir. Beləliklə, gəmiqayırma sənayesində korporativ

infrastrukturu təşkil etmək üçün aşağıdakı bir sıra vacib məsələlərin həll olunmasına ehtiyac vardır:

- Bir neçə iri korporativ qurum yaratmaqla bütün müəssisələr arasında mülkiyyət münasibətlərini tənzimləyərək asanlaşdırmaq;
- Fəaliyyət göstərən və potensial sahibkarlar üçün qəbul olunmuş qərarların şəffaflığını və proqnozlaşdırılmasını artırmaq;
- Tam hüquqlu bir korporativ idarəetmə sisteminin təşkilinə görə kadr və institusional potensialın formalaşdırılması;
- Siyahıyaalanlar, anderrayterlər və qeydiyyatçılar şəklində korporativ idarəetmənin xarici mühitinin formalaşması məqsədilə ilkin şərtlərin yaradılması;
- Bu qrup sənaye alətləri ilə tam hüquqlu fəaliyyət göstərmək məqsədilə fond bazarını təşkil etmək.

Gəmiqayırmada korporativ infrastrukturu təşkil etmək məqsədilə yuxarıdakı məsələlərin çox sürətlə həll olunması çətindir. Bu onunla əlaqədardır ki, yeni formalaşmış gəmiqayırma sənayesinin və onun ayrı-ayrı müəssisələrinin mövcud çətinliklərinin müstəqil şəkildə aradan qaldırılması üçün real olaraq öz maliyyə resurslarının olmamasına görə onların maliyyə durumu dövlət dəstəyi ilə təkmilləşdirilməlidir.

Gəmiqayırmada rəqabətqabiliyyətliliyi təmin etmək məqsədilə əsas istehsal fondlarının, xüsusilə onların aktiv hissəsinin vəziyyəti səmərəliliyə, etibarlılığa və müasir informasiya mühitində işləmək qabiliyyətinə görə müasir tələblərə cavab verməlidir. Gəmiqayırma sənayesində əsas fondların aktiv hissəsi xeyli amortizasiyaya (doklarda, mexaniki və tökmə sexlərində avadanlığın köhnəlməsi) məruz qalır. Amortizasiya son məhsul istehsal edən əsas subyektlərlə yanaşı, həm də komponentləri və avadanlıqları tədarük edən əlaqədar qurumlara da şamil olunur.

Statistik məlumatlardan aydın olur ki, sənayedə fəaliyyət göstərən subyektlərin, o cümlədən maşınqayırma (cihazqayırma) subyektlərinin əsas texnoloji avadanlıqları mənəvi və fiziki cəhətdən köhnəlməyə məruz qalmışdır [2]. Yaşı 10-dan çox olan istehsal avadanlığı ümumi maşın avadanlıqları parkında üstünlük təşkil edir. Bu da fiziki (mənəvi) cəhətdən köhnəlmiş avadanlıqların təsərrüfat dövriyyəsindən dərhal çıxarılaraq daha yeniləri ilə təmin olunub modernləşdirilməsini və daşıyıcıları müasir əsas istehsal vasitələri olan ən son texnologiyaların tətbiqini tələb edir [4].

Sənayenin əsas istehsal fondlarının ən vacib elementlərindən biri onun aparıcı elmi müəssisələrinin xüsusi stend sınaq bazasıdır. Yeni dəniz avadanlığının yaradılması mərhələsində xüsusi stend sınaq bazası obyektlərinin rolu böyük əhəmiyyətə malikdir. Modernləşdirilmiş xüsusi stend sınaq bazası vasitələrinin geniş tətbiqi olmadan sənayedə rəqabətədavamlı yüksək texnologiyalı məhsulların istehsalı mümkün deyil.

SSRİ-nin süqutundan sonra keçmiş İttifaq respublikaları arasında iqtisadi əlaqələrin qırılmasına görə kifayət qədər aydın sənaye, hərbi və elmi-texniki siyasətin olmaması bir sıra mənfi nəticələrə gətirib çıxarmışdır. Bu mənfi hallardan biri yerinə yetirilən elmi-tədqiqat

işlərinin həcminin kəskin şəkildə azalmasından ibarət idi və bu gəmiqayırma sahəsində xeyli aşağı düşməsi ilə fərqlənirdi. Bununla yanaşı, belə durumun yaranması hərbi və mülki məhsulların keyfiyyətcə yeni inkişaf səviyyəsini təmin etmək vəzifəsi daşıyan fundamental tədqiqat işlərinə ən çox öz təsirini göstərdi.

Yuxarıda göstərdiklərimiz dəniz texnologiyasının inkişafının hidroaerodinamikası, korpusun gücü (dizaynı), enerji sənayesi, fiziki sahələr, dəniz obyektlərinin elektron silahlanması və s. kimi əsas sferalarına tam aid edilir. Nəticədə, son illərdə müxtəlif elmi-texniki nailiyyətlərin düzgün həyata keçirilməsi üçün təkmilləşdirici tədbirlərə ehtiyac vardır. Ölkəmizin dəniz sistemləri sahəsində texnologiyaların xarici ölkələrin inkişaf səviyyələrinə çatdırılması əsas hədəf kimi seçilməlidir və gəmiqayırma sənayesində istehsal olunan məhsullar yerli müştərilər üçün mülki məhsullar və hərbi gəmiqayırma, o cümlədən mülki və hərbi ixrac istiqamətləri üzrə təqdim olunur.

Yerli müştərilər üçün mülki məhsullar dedikdə, ölkənin milli bazarının təmin olunması məqsədilə mülki gəmilər və dəniz fəaliyyətinin bütün sahələrində xüsusi dəniz texnikası nəzərdə tutulur. Mülki ixrac milli gəmiqayırma sənayesindəki həqiqi uğurlar və dünya bazarındakı hücum mövqeyi ilə müəyyən edilir. Bu sahədə rəqabətqabiliyyətlilik hərbi texnika bazarından daha yüksək və sərtdir. Statistik məlumatlara əsasən, ölkəmizin dəniz nəqliyyat donanmasının yükdaşıması 01.01.2024-cü ildə 9011 min ton olmuşdur [1, s.10]. Ölkəmizdə istehsal olunan məhsul çeşidləri milli gəmiqayırma müəssisəsinin səylərinin maksimum uğur şansına sahib ola biləcəyi dünya bazarının seqmentləri ilə (yüksək texnoloji və kiçik miqyaslı gəmilər) əlaqədardır.

Yerli müştərilər üçün hərbi gəmiqayırma dedikdə, ölkənin sərhədlərinin müdafiəsi məqsədilə Azərbaycan Dövlət Sərhəd Xidmətinin və Dövlət Təhlükəsizlik Xidmətinin sifarişləri əsasında istehsal olunan gəmilər nəzərdə tutulur. Gəmiqayırma məhsullarının hərbi ixracı bazar konyunkturunun maddi təzahürünü təşkil edir. Onun əlverişli vəziyyəti ideyalar və qabaqcıl elmi-konstruktor inkişafları, o cümlədən rəqabətə davamlı istehsalının üstünlükləri ilə müəyyən edilir. Gəmiqayırma məhsullarının hərbi ixracına yeni nəsil suüstü gəmilər, qayıqlar və qeyri-nüvə sualtı qayıqları, sahil bazaları, xaricdə texniki qulluq və təmir üçün obyektlər aid edilir.

## 7. Gəmiqayırma sənayesinin subyektləri arasında marketinq münasibətləri

Gəmiqayırma məhsullarının ixrac məqsədilə potensial tədarük həcmini dəfələrlə artırmaq mümkündür. Məhsulların çeşidi dünya bazarının ehtiyacları ilə əlaqədardır və potensial olaraq bütün gəmilərin çeşidini təşkil edir. Gəmiqayırmada məqsədli proqramların icrası mexanizminin qurulmasında bazar prinsiplərinin xüsusi rolu vurğulanmalıdır. Bunun üçün proqramın əsas hədəf ölçüləri fiziki baxımdan müəyyənləşdirilərək idarəetmə qərarlarının qəbulunda və dəstəklənməsində iqtisadi motivasiyanın mütləq üstünlüyü nəzərə alınmalıdır. Marketinqin idarə edilməsinin iyerarxik sistemində koordinasiya və idarəetmə mərkəzindən

məqsədli proqramın reallaşdırılmasındakı iştirakçıların nəzarəti, iştirakçıların səlahiyyətləri və sərəncamında olan resurslara uyğun olaraq qərarların qəbulunun qeyri-mərkəzləşdirilməsi təmin olunmalıdır. Məqsədli proqramın icrası üçün ən çətin hallarda və sahələrdə resurslar əsaslandırılmış şəkildə təmərküzləşdirilməlidir.

Ölkəmizin gəmiqayırma sahəsində səmərəli marketinq biznes strukturlarının yaradılması, müxtəlif idarəetmə səviyyələrində istehsal sistemlərinin yenidən təşkili və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi milli gəmiqayırma sənayesinin strateji inkişafının təminatçısı olacaqdır. Eyni zamanda milli gəmiqayırma sənayesinin strateji inkişafında yeni institusional və hüquqi bazanın əsasında indikativ planlaşdırma prinsiplərindən istifadə edərək gəmiqayırmanın inkişaf konsepsiyasının hazırlanmasına və dövlət siyasətinin həyata keçirilməsi üzrə razılaşdırılmış istiqamətlərin müəyyənləşdirilməsinə, təkmilləşdirilmiş proqram idarəetmə metodologiyasından istifadə olunmasına böyük ehtiyac vardır.

**Nəticə.** Yuxarıda göstərilənlərdən məlum olur ki, dünya gəmiqayırma sənayesi ilə sıx əlaqəli olan və onun tərkib hissəsini təşkil edən ölkəmizin gəmiqayırma sahəsi iqtisadiyyatımızın ümumi artımına səbəb olduğu sənayedə cüzi çəkiyə malik olmasına baxmayaraq onun təşkilinin təkmilləşdirilməsi əsas strategiyalardan biri olmalıdır. Milli iqtisadiyyatda baş verən iqtisadi inkişaf, neft-qaz sənayesinin yüksək səmərəliliyi, o cümlədən əsas vəsaitlərin yenilənməsi və gəmiqayırma sahəsində biznesin inkişafı üçün ölkəmizdə əlverişli infrastrukturun mövcud olmasına baxmayaraq gəmiqayırmanın təşkili təkmilləşdirilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Dövlət Statistika Komitəsi (2024), Azərbaycanda Nəqliyyat. Bakı, 84.
2. Azərbaycan Dövlət Statistika Komitəsi (2024), Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 695.
3. https://www.prezident.az/
4. Hüseynov Ə.A. (2017), Sənaye müəssisələrinin modernləşdirilməsinin əsas istiqamətləri. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Praktiki Jurnalı, No.1, 64-68.
5. Məmmədova M.B., Hacıyev Q.B. (2024), Gəmi təmiri müəssisələrinin növləri və onların inkişaf problemləri. Kooperasiya, No.4, 228-235.
6. Məmmədova M.B., Hacıyev Q.B. (2024), Rəqabət qabiliyyətlilik şəraitində gəmi təmiri müəssisələrində istehsalın həyata keçirilməsi sistemi. Azərbaycan Neft Təsərrüfatı, No.11, 46-55.
7. Ветрова Е.Н., Шнанкина С.Н. (2021), Проблематика эффективности предприятий судостроительного комплекса современной России. Научный журнал НИУ ИТМО, Серия: Экономика и Экологический Менеджмент, No.3, 218-227.
8. Новиков А.В. (2023), Особенности управления судостроительными предприятиями. Естественно-Гуманитарные Исследования, Том.3, No.47, 449-452.

9. Чиркова И.Л. (2009), Формирование промышленной политики судостроительного территориально-производственного комплекса. Диссертация кандидата экономических наук, Астрахань, 180.